*İsa Şuşalı*

## *Unudulan dəhşət deyil*

Xocalının soyqırımı –
Xocalmın faciəsi
Sızıldadır qəlb yaramı,
Xocalının faciəsi!

E1 başçısı satqın çıxdı,
Günahsız qan seli axdı.
Ruh dağladı, sinə yaxdı,
Xocalının faciəsi!

Namərd qonşu azğınlaşdı,
Hüquq səddin keçib aşdı.
Sinəmizdə qayalaşdı,
Xocalının faciəsi!

Qəlbimizin nisgilidir,
Gözümüzün qan selidir.
Qanqoxulu sübh yelidir,
Xocalının faciəsi!

Soyulan baş, kəsilən dil,
Odlanan can, susan könül!
Unudulan dəhşət deyil,
Xocalının faciəsi!

Qan alovdur, qan ləpədir,
Körpə qətli can ürpədir.
Yara açan bir qəlpədir,
Xocalın faciəsi!

Qamətimiz döndü yaya,
Gözün həsrət yaşı çaya.
Tapdalanan ismət, həya,
Xocalının faciəsi!

Parçalansa el vəhdəti,
Cani üzə çıxmaz qəti!
Qurbanıdır xəyanətin,
Xocalının faciəsi!

Nahaq haqqa qurar tələ,
Qatil yaxa vermir ələ!
Müəmmalı qalıb hə1ə
Xocalının faciəsi!

***Şuşalı İ. Unudulan dəhşət deyil : şeir // Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.96-97.***

Şəhidlərin ruh aləmi,
İsa olsa, haqq hakimi,
Söz açar bir şahid kimi,
Xocalınm faciəsi
Xocalının faciəsi!